# Ümummilli liderin həmişəyaşar ideyaları Azərbaycanı yeni uğurlara qovuşdurur

***Xalqımızın qiymətli bir ifadəsi var: "Su kimi əziz insan". Bu bənzətmədə Yer üzünün əşrəfi insanın dəyəri saflıq və canlı həyat rəmzi sayılan suya bərabər tutulur. Bəli, su olmadan həyat yoxdur, o, canlı aləmin mənbəyi və əsasıdır. Lakin həyat elə qurulub ki, hər adam da su kimi əziz ola bilmir. Bu müqəddəsliyə və doğmalığa yalnız ulu Tanrının su kimi həyatverici qüvvə bəxş etdiyi nadir insanlar layiq görülürlər. Azərbaycan xalqının belə müqəddəs tarixi şəxsiyyətləri sırasında ən öndə əbədiyyət qazanan ümummilli liderimiz Heydər Əliyevdir.***

Ulu öndərin bütün həyatı və fəaliyyəti ölkəmizin çiçəklənməsi və xalqımızın xoşbəxtliyi uğrunda mübarizəyə həsr olunmuşdur. Su cansız torpağa həyat verdiyi kimi, xalqımızın qüdrətli oğlu Heydər Əliyevin titanik liderlik fəaliyyəti, ideya və əməlləri də öz Vətəninə hərtərəfli inkişaf və yüksək tərəqqi gətirmişdir. Ölkəmizdə təsərrüfatın bütün sahələri kimi, meliorasiya və irriqasiya sistemlərinin inkişafı da böyük rəhbərin həyatverici rəhbərliyi ilə sıx şəkildə bağlıdır.

Heydər Əliyevin 1969–1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə bu sahədə böyük quruculuq işləri aparılmış, güclü istehsalat bazası, tikinti və istismar təşkilatları, elmi-tədqiqat və layihə-axtarış qurumları yaradılmışdır. O zaman su axımını bölüşdürən və tənzimləyən suvarma sitemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları və su anbarlarından ibarət nəhəng meliorasiya və su təsərrüfatı kompleksləri ərsəyə gətirilmiş, suvarılan torpaqların ümumi sahəsi 1,5 dəfə artmışdır.

Həmin illərdə meliorasiya və su təsərrüfatı sisteminə əvvəlki 50 ildə olduğundan 2 dəfə çox vəsait qoyulmuşdur. Bununla, min kilometrlərlə suvarma kanallları, kollektor-drenaj sistemləri, iri nasos stansiyaları, hidroqovşaqlar, ümumi tutumu 3 milyard kubmetr olan su anbarları və s. tikilib-istifadəyə verilmişdir. O illərdə meliorativ fondların həcmi 2 dəfədən çox artmış və respublikanın müxtəlif bölgələrində su çatışmazlığı vaxtında aradan qaldırılmışdır. Nəticədə, ölkədə torpağın məhsuldarlığı qat-qat yüksəldilmiş, suvarma əkinçiliyi özünü doğrultmuş, meliorativ tədbirlər böyük səmərə vermişdir.

Qurucu lider Heydər Əliyevin gərgin əməyi nəticəsində 1970-ci ildən başlayaraq ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında mühüm naliyyətlər əldə olunmuşdur. Məsələn, 1983-cü ildə kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 1970-ci ildəkinə nisbətən 2,2 dəfə, o cümlədən bitkiçilikdə 2,6 dəfə, heyvandarlıqda isə 1,7 dəfə yüksəlmişdir.

Azərbaycanda 1969–1982-ci illərdə istifadəyə verimiş mühüm əhəmiyyətli irriqasiya və meliorasiya obyektlərinin– Ağstafaçay, Araz, Arpaçay, Sirab, Zaqolovoçay, Sərsəng, Yuxarı Xanbulançay, Aşağı Köndələnçay su anbarlarının, Naxçıvan MR-da üçpilləli Qaraçuq və ikipilləli Arpaçay, Tovuz rayonunda üçpilləli, Zəngilan rayonunda ikipilləli nasos stansiyalarının istifadəyə verilməsi, Dağlıq Qarabağda, Lənkəran və Astara rayonlarında suvarma sitemlərinin, Baş Şirvan kollektorunun yenidən qurulması, Mil-Muğan hidroqovşağının Baş Mil kanalı ilə birlikdə işə salınması ölkə təsərrüfatlarının suvarma suyu ilə təminatını əsaslı surətdə yaxşılaşdırmışdır.

Hər hidrotexniki qurğunun tikintisi ilə əlaqədar xalq arasında Heydər Əliyevin şəxsiyyəti haqqında müəyyən yerli xalq deyimləri yaranırdı. Məsələn, Viləşçay su anbarının istifadəsindən sonra yerli ağsaqqallardan biri demişdi: "Bu anbara görə Heydər Əliyevə insanların alqışı, duası göylərə bülənd olmuşdur". Belə kəlamlar xalqın öz rəhbərinə verdiyi dəyərin və bəslədiyi sevginin təzahürüdür. Bir deyim isə Şəmkir su anbarının tikintisi ilə bağlıdır. Onun tikintisi keçmiş SSRİ-də mövcud olan beşillik plana salınsa da işə başlamaq mümkün olmurdu. Tikintinin texniki-iqtisadi əsaslandırılması aparılsa da, texniki layihə və işçi cizgiləri hazırlansa da maliyyə vəsaiti ayrılmadığı üçün iş yubanırdı. O vaxt belə böyük layihələr mərkəzi büdcədən ayrılan vəsaitlər hesabına icra edilirdi. Beşilliyin sonuncu ilində də bu iş üçün mərkəzi büdcədən vəsait ayrılmasaydı, su anbarının tikintisi sual altında qalacaqdı. Nəhayət, Heydər Əliyevin ittifaq rəhbərliyindəki böyük nüfuzu məsələni həll etdi, Şəmkir su anbarı tikildi və o vaxt belə bir qanadlı ifadə yarandı: "Meliorasiya və su təsərrüfatı Heydər Əliyevin əsəridir".

Xalqın dəvəti və taleyin hökmü ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu. Mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Azərbaycanda mövcud meliorasiya potensialı qorunub saxlanıldı.

1993-1995-ci illərdən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və məqsədyönlü tədbirlər ölkədə əvvəllər baş alıb gedən özbaşınalıqlara və xaosa son qoydu, ictimai-siyasi sabitliyi təmin etdi, respublikada hərtərəfli sosial-iqtisadi siyasət aparmaq və beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmaq üçün əlverişli şərait yaratdı. 1995-ci ildən başlayaraq ardıcıl aparılan islahatlar nəticəsində iqtisadiyyatın inkişafında mühüm irəliləyişlər əldə edildi. Bir çox sahələrdə, xüsusilə aqrar sferada yüksək nəticələrə nail olundu. Aqrar islahatlar başa çatdıqdan sonra kənd təsərrüfatında böyük uğurlar qazanıldı və rekord göstəricilər əldə edildi.

Aqrar islahatın bir hissəsi olaraq, meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutuldu. İslahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi təmin sənəd hazırlandı. Bu sənədlərdən ən mühümü ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli fərmanıdır.

Ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar, ilk növbədə, meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11-i seçildi və onlardan iqtisadiyyatınız üçün ən vacib olan üç obyektin – Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı. Sonradan meliorasiya və irriqasya istiqamətində neçə-neçə belə böyük layihələrin həyata keçirilməsinə nail olundu.

> ***Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik.***
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

Çox böyük fəxrlə qeyd etmək olar ki, ulu öndərimiz, Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin siyasi xətti və ideyaları möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilir. Meliorasiya və irriqasya sahəsində bu varisliyin timsalı kimi Samur-Abşeron magistral suvarma sisteminin yenidən qurulmasını və Taxtakörpü su anbarının tikintisini nümunə göstərmək olar.

Uzun müddət suya artan ehtiyacı ödəmək məqsədilə Samur–Abşeron magistral kanalı fasiləsiz şəkildə əsaslı təmirə dayanmadan istismar edilirdi. Nəticədə, kanalın beton örtüyü bəzi yerlərdə dağılaraq sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş, su itkisi artmışdı. İlham Əliyevin tapşırığına əsasən bu problemin həlli yolları araşdırılmış və Samur–Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçrilməsi təklif olunmuşdur.

Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən ümumi sututumu 22 milyard kubmetr olan 138 su anbarından istifadə edilir. 19 hidroqovşaq, 51 min 800 kilometr suvarma kanalı, 32 min 633 kilometr kollektor-drenaj şəbəkəsi, 1046 nasos stansiyası, 138 min müxtəlif hidrotexniki qurğu, 7 min 633 subartezian quyusu, 2 min kilometrdən artıq sel və daşqınlardan mühafizə bəndi, 1025 min hektar qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları vahid kompleks şəklində istismardadır.

Ölkə başçısının qətiyyətli siyasəti sayəsində işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işləri böyük vüsət almışdır. Bununla əlaqədar olaraq, bütün sahələrdə olduğu kimi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin də qarşısında mühüm vəzifələr durur. Bu vəzifələr 5 aprel 2021-ci il tarixdə Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nə sədr vəzifəsinə təyin edərkən Prezident İlham Əliyevin verdiyi qiymətli tövsiyələrində öz əksini tapmışdır və bu gün bəzi məqamları yenidən xatırlamaq yerinə düşərdi.

Dövlət rəhbəri öz tövsiyələrində bildirmişdir ki, meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti var. Su anbarlarının, kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər, suyun səmərəli istifadəsi də həmişə narahatlıq doğurub. Bu sahədə əldə edilmiş uğurlarla yanaşı, çətinliklər, çatışmazlıqlar da var. Bunlar aradan qaldırılmalıdır.

Bütövlükdə, son illər ərzində kənd təsərrüfatının dayanıqlı inkişafı, su təminatının səmərəliliyi ilə bilavasitə bağlıdır. Biz son illər ərzində vaxtilə suvarılmayan torpaqlara su gətirmişik. Bu torpaqların həcmi 100 min hektarlarla ölçülür. Vaxtilə, ümumiyyətlə, su görməyən torpaqlara, yaxud da ki, qismən suvarılan torpaqlara suyun verilməsi bu bölgələri canlandırdı və 100 minlərlə hektar torpağa su verildi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin gərgin siyasi-diplomatik fəaliyyəti və rəhbərliyi nəticəsində şanlı ordumuzun Vətən müharibəsindəki möhtəşəm Qələbəsi hər birimizi sevindirir. Hazırda ölkə başçısının məqsədyönlü siyasəti nəticəsində işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işləri böyük vüsət almışdır. Bununla əlaqədar bütün sahələrdə olduğu kimi, Meliorasiya və Su Təsərrüfatı ASC-nin də qarşısında mühüm vəzifələr durur. Məhz buna görə də Prezidentimiz tərəfindən imzalanmış 2020-ci il 27 iyun tarixli sərəncama əsasən, "Su ehtiyatlarından səmərəli istifadə edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Burada nəzərdə tutulan tədbirlərin reallaşdırılması kənd təsərrüfatında sudan davamlı istifadənin təmin edilməsində mühüm rol oynayacaqdır. Tədbirlər Planından irəli gələn vəzifələrin həyata keçirilməsində respublikamızın melioratorları, eləcə YAP ərazi təşkilatının üzvləri də fəal iştirak edirlər.

İndiyədək yerinə yetirilmiş işlər və gələcək onilliklərdə nəzərdə tutulan tədbirlər ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı olan Prezidentimiz İlham Əliyevin meliorasiya sahəsinə diqqət və qayğısının əyani təzahürüdür. Ulu öndər Heydər Əliyevin ideyaları isə daim yaşayır və müstəqil azərbaycanı yeni uğurlara qovuşdurur.

***Saleh SADIQOV,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC Hidrogeoloji-Meliorativ Xidmət İdarəsinin rəisi, Əməkdar mühəndis***